**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
_______________dos. Zaur Məmmədov
"____" ______ 2026-ci il

# Fənn sillabusu

**İxtisasın şifri və adı:** 6005004-Ekologiya, 6001015- Riyaziyyat müəllimliyi, 6001005-Fizika müəllimliyi
**Fakültə:** Təbiyyat
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı: Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.** Fənn üzrə proqram Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 19.09.2022-ci il tarixli 556 saylı əmrinə əsasən çap edilmişdir.
**Kodu:** ÜF-B02
**Tədris ili:** I - 2025/2026
**Semestr:** II (yaz)
**Tədris yükü:** Cəmi: 120 saat, Auditoriya saatı 45 saat (Seminar 45 saat)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**II.Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** Azad Məhəmməd Dərgah
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**Məsləhət günləri və saatı:** V gün saat $11^{50}$-$12^{20}$
**E-mail ünvanı:** azadovmahammad@gmail.com
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat:**


1. K.B.Dənziyeva "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya". Bakı, 2025, 364 s.
2. N.Məmmədli. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya". Bakı, 2021
3. Böyükxanım Eminli, Günel Paşayeva. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya". Sumqayıt Dövlət Universiteti., Sumqayıt, 2021, 400 s.
4. B.Xəlilov "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya". Bakı, 2021, 485 s.
5. N.Səlimova "İşgüzar yazışmalar". Ali məktəblər üçün metodik vəsait. Bakı Biznes Universitetinin nəşriyyatı Bakı, 2017
6. E. Musayev. "Kargüzarlığın təşkili". Bakı, "Qanun", 2012


**Əlavə ədəbiyyat:**


7. T.Əbdülhəsənli, A.Hüseynova "İşgüzar Azərbaycan dili" Bakı, 2006
8. Ş.Balakişiyev, Ə.Namazov, "Əməli yazı nümunələri". Bakı, 2006
9. İnternet resursları.


**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.
**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:** Azərbaycan dili Azərbaycan millətinin ana dili, Azərbaycan Respublikasının dövlət dilidir. İxtisasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öz ana dilində düzgün yazmağı və fikir ifadə etməyi bacarmalıdır.

Bu məqsədlə "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni dilimizdən həm şifahi, həm də yazılı formada düzgün, məntiqi, aydın şəkildə istifadə edilməsini öyrətmək baxımından çox əhəmiyyətlidir. Tədris prosesində fənnin tələbinə görə kommunikasiya haqqında məlumat vermək, hər bir dil vahidindən düzgün istifadə etmək və tələbələrdə müstəqil təqdimatlar etmək, işgüzar və akademik yazı bacarıqlarını formalaşdırmaq ön plana çəkilir.

"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya " fənnin məqsədi tələbələrə işgüzar və akademik yazı bacarıqlarını, kommunikasiyanın elmi əsaslarını, dilimizdən düzgün, məntiqi, aydın şəkildə istifadə edilməsini öyrətməkdir.

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| **Bal aralığı (göstərilən ballar daxil olmaqla)** | **Hərflə işarəsi** | **Sözlə yazılışı** |
|---|---|---|

| | | |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX.Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:** ***Seminar 45saat. Cəmi:45 saat***

| № | Keçirilən seminar mövzularının məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | Mövzu: "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti, məqsəd və vəzifələri<br>Plan:<br>1."Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti.<br>2.Dil və nitq.<br>3. Fənnin məqsəd və vəzifələri.<br>Mənbə: [1,2,6] | 2 | |
| 2. | Mövzu: Azərbaycan dili anlayışı. Dilimizə dövlət qayğısı<br>Plan:<br>1. Azərbaycan dili anlayışı.<br>2. Azərbaycan dilinə dövlət qayğısı.<br>3. Ulu öndər H.Əliyevin Azərbaycan dilinin inkişafında xidmətləri.<br>Mənbə: [1,2,6,7] | 2 | |
| 3. | Mövzu: Kommunikasiya anlayışı. Verbal və qeyri-verbal kommunikasiya<br>Plan:<br>1. Kommunikasiya anlayışı.<br>2.Verbal kommunikasiya.<br>3. Nitqin növləri.<br>4. Qeyri-verbal kommunikasiya.<br>Mənbə: [1,2,6] | 2 | |
| 4. | Mövzu: İşgüzar kommunikasiyada etiket qaydaları<br>Plan:<br>1. İşgüzar kommunikasiyada etiket qaydaları.<br>2. İşgüzar kommunikasiyada nitq etiketlərinin növləri.<br>Mənbə: [1,2,6,7] | 2 | |
| 5. | Mövzu: İşgüzar və akademik kommunikasiyada natiqlik<br>Plan:<br>1. Natiqlik ənənələri.<br>2. Natiqlik sənətinin sahələri.<br>3. Natiqlik sənətinin başqa elmlərlə əlaqəsi.<br>Mənbə: [1,2,3,4,6] | 2 | |
| 6. | Mövzu: İşgüzar və akademik kommunikasiyada nitqin əsas keyfiyyətləri<br>Plan:<br>1.Kommunikasiyada nitqin əsas keyfiyyətləri.<br>2.Kommunikasiyada nitqi zəiflədən amillər.<br>Mənbə: [1,2,3,6,7] | 2 | |
| 7. | Mövzu: İşgüzar və akademik kommunikasiyada ədəbi dil və onun normaları | 2 | |

| | | | |
|---|---|---|---|
| | Plan:<br>1. Norma anlayışı.<br>2. Ümumxalq dili və ədəbi dil.<br>3. Azərbaycan ədəbi dilinin normaları.<br>Mənbə: [1,2,3,6,7] | | |
| 8. | Mövzu: İşgüzar və akademik kommunikasiyada fonetik norma<br>Plan:<br>1. Fonetik norma, onun xüsusiyyətləri.<br>2.Orfoepik norma.<br>3. Orfoqrafik norma.<br>Mənbə: [1,2,3,6] | 2 | |
| 9. | Mövzu: Vurğu, intonasiya, durğu işarələri və mürəkkəb adlar<br>Plan:<br>1. Nitqdə vurğu, intonasiya və fasilənin rolu.<br>2. Durğu işarələri.<br>3. Mürəkkəb adların yazılışı və ixtisarı.<br>Mənbə: [1,2,3,6] | 2 | |
| 10. | Mövzu: İşgüzar və akademik kommunikasiyada leksik norma<br>Plan:<br>1. Kommunikasiyada leksik normanın xüsusiyyətləri.<br>2. Semantik söz qruplarından (çoxmənalı sözlər, omonimlər, sinonimlər, antonimlər) leksik normaya uyğun istifadə.<br>3. Leksik normanı pozan söz qrupları.<br>Mənbə: [1,2,3,6,7] | 2 | |
| 11. | Mövzu: İşgüzar və akademik kommunikasiyada qrammatik norma<br>Plan:<br>1. Morfoloji norma.<br>2. Sintaktik norma.<br>Mənbə: [1,2,4,6] | 2 | |
| | II kollokvium mövzuları | | |
| 12. | Mövzu: İşgüzar və akademik kommunikasiyada funksional üslublar<br>Plan:<br>1. Üslub anlayışı.<br>2. Ədəbi dilin funksional üslubları.<br>3. Üslubi normalar.<br>Mənbə: [1,2,3,6] | 2 | |
| 13. | Mövzu: Rəsmi-işgüzar üslub<br>Plan:<br>1. Rəsmi-işgüzar üslub, onun xüsusiyyətləri.<br>2. Rəsmi sənədlər.<br>3. İşgüzar sənədlər.<br>Mənbə: [1,2,3,4,5,6] | 2 | |
| 14. | Mövzu: Onlayn işgüzar kommunikasiya<br>Plan:<br>1. İşgüzar yazışmalar.<br>2. Onlayn kommunikasiya.<br>Mənbə: [1,2,3,4,5,6] | 2 | |
| 15. | Mövzu: İşgüzar kommunikasiya sənədlər: akt, hesabat<br>Plan:<br>1. Aktın mahiyyəti, məzmunu və forması.<br>2. Hesabatın mahiyyəti, məzmunu və forması.<br>Mənbə: [1,2,3,5,6] | 2 | |

| | | | |
|---|---|---|---|
| 16. | Mövzu: İşgüzar kommunikasiyada reklam, elan və onun növləri<br>Plan:<br>1. Reklamın mahiyyəti və xüsusiyyətləri.<br>2. Məzmun və məqsədinə görə elanların növləri; anons, bildiriş, afişa.<br>Mənbə: [1,2,3,5,6] | 2 | |
| 17. | Mövzu: İşgüzar kommunikasiyada sənədlər: təqdimat, əmr və ərizə<br>Plan:<br>1.Təqdimatın mahiyyəti, məzmunu və forması.<br>2.Əmrin mahiyyəti, məzmunu və forması.<br>3.Ərizənin mahiyyəti, məzmunu və forması.<br>Mənbə: [1,2,5,7] | 2 | |
| 18. | Mövzu: İşgüzar kommunikasiyada sənədlər: xasiyyətnamə, tərcümeyi-hal və arayış<br>Plan:<br>1. Xasiyyətnamənin mahiyyəti, məzmunu, forması və dil xüsusiyyətləri.<br>2.Tərcümeyi-halın mahiyyəti, məzmunu və forması.<br>3. Arayışın mahiyyəti, məzmunu, forması.<br>Mənbə: [1,2,5,7] | 2 | |
| 19. | Mövzu: İşgüzar kommunikasiyada sənədlər: məktub, izahat və protokol<br>Plan:<br>1. Məktubun mahiyyəti, məzmunu, forması.<br>2. İzahatın mahiyyəti, məzmunu, forması.<br>3. Protokolun mahiyyəti, məzmunu və forması.<br>Mənbə: [1,2,3,5,6] | 2 | |
| 20. | Mövzu: İşgüzar kommunikasiyada sənədlər: CV, etibarnamə<br>Plan:<br>1.CV-nin mahiyyəti, tərtib qaydaları.<br>2. Etibarnamənin mahiyyəti, məzmunu, forması və dil xüsusiyyətləri.<br>Mənbə: [1,2,5,7] | 2 | |
| 21. | Mövzu: Akademik kommunikasiya<br>Plan:<br>1. Şifahi akademik kommunikasiya.<br>2. Yazılı akademik kommunikasiya.<br>Mənbə: [1,2,3,5,6] | 2 | |
| 22. | Mövzu: Yazılı elmi mətnlər: kurs işi, tezis, rəy, referat, annotasiya, icmal<br>Plan:<br>1. Kurs işinin mahiyyəti və quruluşu.<br>2. Tezis, ona verilən başlıca tələblər.<br>3. Rəy xüsusiyyətləri.<br>4. Referatın tərtibi qaydaları.<br>5.Annotasiyanın mahiyyəti və xüsusiyyətləri.<br>6. İcmalın tərtibi qaydaları.<br>Mənbə: [1,2,3,5,6] | 2 | |
| 23 | Mövzu: Yazılı elmi mətnlər: xülasə, məqalə, diplom (buraxılış) işi, dissertasiya, avtoreferat, monoqrafiya<br>Plan:<br>1.Xülasənin mahiyyəti.<br>2.Elmi məqalə.<br>3.Diplom (buraxılış) işi. | 1 | |

| | | | |
|---|---|---|---|
| | 4. Dissertasiya.<br>5.Avtoreferat.<br>6.Monoqrafiya.<br>Mənbə: [1, 2, 3, 5] | | |

**XI. Fənn üzrə tələblər:** Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənnini öyrənməklə tələbələr fənnin mahiyyəti, məqsəd və vəzifələrini, Azərbaycan dili anlayışı, kommunikasiya anlayışı, işgüzar kommunikasiyada etiket qaydalarını, natiqliyi, nitqin əsas keyfiyyətlərini, ədəbi dilin norma və üslublarını, işgüzar sənədləri, akademik kommunikasiyanı, yazılı elmi mətnləri mənimsəməli və tətbiq etməyi bacarmalıdır.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-seminarlar və praktiki tapşırıqlar;
-tədqimatlar, müzakirələr və debatlar;
-müstəqil iş / araşdırma (məsələn, prkatiki nümunələrlə iş);
-problemlərə əsaslanan tədris.

**XIII. Fənn üzrə təlimin nəticələri:**

FTN 1. Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğını ilə bağlı məlumatlara yiyələnir. Dövlət dili haqqında fərman və sərəncamlar, "Ulu öndər Heydər Əliyev və Azərbaycan dili mövzusunda təqdimatlar hazırlamağı öyrənmək, "Azərbaycan dilində işgüzar va akademik kommunikasiya" fənninin məqsəd və vəzifələrini bilmək;

FTN 2. Akademik kommunikasiya prosesində şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər, nitqin düzgünlüyü,dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi, rabitəliliyi va digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində bilir;

FTN 3. Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv va passiv leksikasını, ədəbi dil va kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını bilir;

FTN 4. Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək, İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirir və yazılı şəkildə işgüzar kommunikasiya yarada bilir;

FTN 5. Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək və işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara bilir, işgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini başa düşür və işgüzar ritorika haqqında nəzəri və praktik çalışmaları sintez edir və təhlillər apara bilir;

**XIV.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

__________________________________________

__________________________________________

**XV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti, məqsəd və vəzifələri
2. Dil və nitq
3. Azərbaycan dili anlayışı
4. Kommunikasiya anlayışı
5. Verbal kommunikasiya
6. Nitqin növləri
7. Qeyri-verbal kommunikasiya
8. İşgüzar kommunikasiyada etiket qaydaları

9. İşgüzar və akademik kommunikasiyada natiqlik
10. Natiqlik sənətinin sahələri

**II Kollokvium sualları**

1. Norma anlayışı. Azərbaycan ədəbi dilinin normaları
2. İşgüzar və akademik kommunikasiyada norma: fonetik norma
3. Mürəkkəb adların yazılışı və ixtisarı
4. Durğu işarələri
5. İşgüzar və akademik kommunikasiyada norma: leksik norma
6. Semantik söz qruplarından (çoxmənalı sözlər, omonimlər, sinonimlər, antonimlər) leksik normaya uyğun istifadə
7. İşgüzar və akademik kommunikasiyada norma: qrammatik norma ( morfoloji və sintaktik)
8. İşgüzar və akademik kommunikasiyada funksional üslublar
9. Üslub anlayışı
10. Funksional üslublar: Elmi üslub

**XVI. Fənn üzrə imtahan sualları:**

1. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin mahiyyəti, məqsəd və vəzifələri
2. Dil və nitq
3. Azərbaycan dili anlayışı
4. Kommunikasiya anlayışı
5. Verbal kommunikasiya
6. Nitqin növləri
7. Qeyri-verbal kommunikasiya
8. İşgüzar kommunikasiyada etiket qaydaları
9. İşgüzar və akademik kommunikasiyada natiqlik
10. Natiqlik sənətinin sahələri
11. Natiqlik sənətinin başqa elmlərlə əlaqəsi
12. Kommunikasiyada nitqin əsas keyfiyyətləri
13. Kommunikasiyada nitqi zəiflədən amillər
14. Norma anlayışı. Azərbaycan ədəbi dilinin normaları
15. Ümumxalq dili və ədəbi dil
16. İşgüzar və akademik kommunikasiyada norma: fonetik norma
17. İşgüzar və akademik kommunikasiyada norma: orfoepik və orfoqrafik norma
18. Nitqdə vurğu, intonasiya və fasilənin rolu
19. Mürəkkəb adların yazılışı və ixtisarı
20. Durğu işarələri
21. İşgüzar və akademik kommunikasiyada norma: leksik norma
22. Semantik söz qruplarından (çoxmənalı sözlər, omonimlər, sinonimlər, antonimlər) leksik normaya uyğun istifadə
23. Leksik normanı pozan söz qrupları
24. İşgüzar və akademik kommunikasiyada norma: qrammatik norma( morfoloji və sintaktik)
25. Üslub anlayışı
26. İşgüzar və akademik kommunikasiyada funksional üslublar
27. Funksional üslublar: Elmi üslub
28. Funksional üslublar: Rəsmi-işgüzar üslub
29. İşgüzar yazışmalar (işgüzar məktublar )
30. Onlayn kommunikasiya, elektron yazışmalar
31. İşgüzar kommunikasiyada sənədlər: akt, hesabat
32. İşgüzar kommunikasiyada reklam, elan və onun növləri (bildiriş, anons, afişa)
33. İşgüzar kommunikasiyada sənədlər: təqdimat, əmr və ərizə

34. İşgüzar kommunikasiyada sənədlər: xasiyyətnamə, tərcümeyi-hal və arayış
35. İşgüzar kommunikasiyada sənədlər: məktub, izahat və protokol
36. İşgüzar kommunikasiyada sənədlər: CV, etibarnamə
37. Şifahi akademik kommunikasiya
38. Yazılı akademik kommunikasiya
39. Yazılı elmi mətnlər: kurs işi, tezis, annotasiya, rəy
40. Yazılı elmi mətnlər: məqalə, xülasə, dissertasiya

"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin sillabusu 6005004-Ekologiya, 6001015- Riyaziyyat müəllimliyi, 6001005-Fizika müəllimliyi ixtisası (proqramı) üzrə tədris planı və Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənn proqramı əsasında tərtib edilmişdir. Azərbaycan dili və ədəbiyyat" kafedrasının 30 yanvar 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 05).

**Fənn müəllimi:** **m.M.D.Azad**

**Kafedra müdiri:** **dos.Q.İ.Rufullayev**